**Maddə 50. Məcburi qərarlar**

50.1. Şəxs konkret mallar və əməliyyatlarla əlaqədar malların gömrük dəyərini, təsnifatını və mənşə ölkəsini, **habelə gömrük rüsumlarından azadolmanın tətbiqinin mümkünlüyünü əvvəlcədən müəyyənləşdirmək məqsədilə** gömrük orqanına yazılı və ya elektron formada müraciət edə bilər.

50.2. Məcburi qərar qəbul edildikdən sonra yazılı və ya elektron formada şəxsə göndərilir və barəsində qərar çıxarılmış şəxsə təqdim olunduğu (məlumat verildiyi) tarixdən qüvvəyə minir.

50.3. Məcburi qərarın icrası yalnız həmin qərarı əldə etmiş şəxsə münasibətdə gömrük orqanları üçün məcburi xarakter daşıyır.

50.4.Bu Məcəllənin 50.5-ci maddəsinə əsasən ləğv edilən qərarlar istisna olmaqla, malların təsnifatına, mənşə ölkəsinə dair məcburi qərarlar qüvvəyə mindiyi tarixdən etibarən 3 (üç) il müddətində, malların gömrük dəyərinə və gömrük rüsumlarından azadolmanın tətbiqinin mümkünlüyünə dair məcburi qərarlar isə qüvvəyə mindiyi tarixdən etibarən 1 (bir) il müddətində qüvvədə olur.

50.5. Məcburi qərarlar aşağıdakı hallarda ləğv edilir:

50.5.1. bu Məcəllənin 49.1-ci maddəsində nəzərdə tutulmuş halda;

50.5.2. qərar qəbul edildikdən sonra malların gömrük dəyərini, təsnifatını və mənşə ölkəsini, habelə gömrük rüsumlarından azadolmanın tətbiqinin mümkünlüyü ilə bağlı məsələləri tənzimləyən gömrük qanunvericiliyində qərarla ziddiyyət yaradan dəyişiklik edildikdə.

50.6. Gömrük orqanları tərəfindən məcburi qərarların qəbul edilməsi qaydalarını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir. Həmin qaydalarda məcburi qərarların nəşri ilə bağlı tələblər də nəzərdə tutulmalıdır.

**Qeyd:** *Layihədə dəyişiklik və əlavələr edilməsi nəzərdə tutulmuş "məcburi qərarlar" institutu gömrük xidmətinin xüsusi diqqət yetirdiyi ən zəruri məsələlərdən biridir. Bu xidmət gömrük orqanlarına etimadın gücləndirilməsinə birbaşa xidmət edir. Göründüyü kimi mövcud redaksiyada konkret mallar və əməliyyatlarla əlaqədar malların gömrük dəyərinin, təsnifatının və mənşə ölkəsinin əvvəlcədən müəyyən edilməsi ilə bağlı şəxsin gömrük orqanlarına müraciət hüququ ehtiva olunurdusa, əlavəyə görə artıq şəxslər gömrük rüsumlarından azadolmanın tətbiqinin mümkünlüyünü əvvəlcədən müəyyənləşdirmək məqsədilə də gömrük orqanına yazılı və ya elektron formada müraciət edə biləcəklər. Əlavə olaraq qeyd olunan "məcburi qərarlar" institutu ilə bağlı müvafiq tənzimləmələr aparılmış, eyni zamanda Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə "Məcburi qərarların qəbul edilməsi Qaydaları"nın hazırlanması planlaşdırılmışdır.*